

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 59 (23.946)

*1 aprel 2022-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 31-də Polşanın xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Zbiqnev Raunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Prezident İlham Əliyev Avropa İttifaqı ilə əməkdaşlıq məsələlərindəki dəstəyə görə Polşaya minnətdarlıq edib. Ümidvar olduğu bildirilib ki, Prezident Şarl Mişelin təşkilatçılığı ilə Ermənistanın baş naziri ilə yeni görüş məhsuldar olacaq. Qeyd edilib ki, münaqişə artıq öz həllini tapıb, Azərbaycanla Ermənistan arasında münasibətləri nizamlamaq vaxtıdır. Azərbaycan tərəfinin təqdim etdiyi beş prinsip beynəlxalq hüququn normalarını, yaxşı beynəlxalq davranışı əks etdirir. Prezident İlham Əliyev 30 illik işğal dövründə ermənilərin torpaqlarımızda vəhşiliklər törətdiklərini deyib. Dövlətimizin başçısı 1-ci Ermənistan-Azərbaycan müharibəsindən indiyədək 4 min soydaşımızın itkin düşdüyünü ATƏT-in fəaliyyətdə olan sədrinin diqqətinə çatdırıb.

Polşanın xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Zbiqnev Rau Azərbaycanla Ermənistan arasında münasibətlərin nizamlanmasından, Azərbaycanla Polşa arasında ikitərəfli münasibətlərin inkişafından danışıb.

Görüşdə qarşılıqlı maraqdoğuran digər məsələlər müzakirə olunub.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Martın 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Respublikasının Ankara, Qazi və İstanbul Texnik universitetlərinin rektorları ilə görüşmüşdür.

Ali Məclisin Sədri qardaş Türkiyənin ilk yerlərdə olan universitet rektorlarının Naxçıvana səfərindən məmnunluğunu bildirmiş, Naxçıvan Dövlət Universiteti ilə əməkdaşlığa görə qonaqlara təşəkkür etmişdir. Azərbaycan-Türkiyə strateji tərəfdaşlığına toxunan Ali Məclisin Sədri təhsil sahəsindəki əməkdaşlığa diqqəti çəkmiş və təhsilin hər bir ölkə üçün strateji sahə olduğunu bildirmişdir. Ali Məclisin Sədri “Elm paylaşıldığı zaman daha da çoxalır” fikrini xatırladaraq ali təhsil müəssisələri arasındakı əməkdaşlığın bu baxımdan faydalı olacağını vurğulamışdır.

Səmimi qəbula görə minnətdarlıq edən Ankara Universitetinin rektoru, professor doktor Nəcdət Ünüvar Naxçıvan Dövlət Universiteti ilə qarşılıqlı əlaqələrdən, eləcə də ölkələrimiz arasındakı dostluq və qardaşlıqdan bəhs etmişdir. Naxçıvana altı il öncəki səfərini xatırladan rektor ötən dövrdə muxtar respublikada əldə olunan inkişafı yüksək dəyərləndirmiş, səfərin təhsil sahəsindəki əlaqələrə mühüm töhfə verəcəyini vurğulamışdır.

İstanbul Texnik Universitetinin rektoru, professor doktor İsmayıl Koyuncu və Qazi Universitetinin rektoru, professor doktor Musa Yıldız da Naxçıvanda olmaqdan məmnunluqlarını bildirmiş, Naxçıvan Dövlət Universiteti ilə əlaqələrdən danışmışlar.





Sonda xatirə şəkli çəkdirilmişdir.

Azərbaycanın Tükiyədəki səfirliyinin təhsil müşaviri Nəcibə Nəsibova görüşdə iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti mart ayının son 15 günü ərzində bir sıra qərarlar qəbul edib. Belə ki, Nazirlər Kabinetinin 2022-ci il 16 mart tarixli Qərarı ilə “Naxçıvan Muxtar Respublikasında dövlət tərəfindən yaradılan ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi haqqında” və “Naxçıvan Muxtar Respublikasında dövlət tərəfindən yaradılan orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi haqqında”qərarlarında dəyişiklik edilmişdir.

Bundan başqa, Nazirlər Kabinetinin 2022-ci il 17 mart tarixli Qərarı ilə “Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən teatrların “Akademik” və “Milli” statuslarına təqdim olunması Qaydası” təsdiq edilmişdir.

Həmçinin Nazirlər Kabinetinin 2022-ci il 28 mart tarixli Qərarı ilə “Naxçıvan Muxtar Respublikasında dövlət tərəfindən yaradılan peşə təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi”ndə dəyişiklik edilmişdir.

Nazirlər Kabinetinin 2022-ci il 29 mart tarixli Qərarı ilə “Naxçıvan Muxtar Respublikasında dövlət müəssisə və təşkilatlarının, habelə tam özəlləşdirilməmiş səhmdar cəmiyyətlərin və nizamnamə fondunda dövlətin payı olan hüquqi şəxslərin balansında olan limitdən və tələbatdan artıq nəqliyyat vasitələrinin, o cümlədən normativ-istismar müddəti bitmiş, tam aşınmış, silinməli olan nəqliyyat vasitələrinin satışının təşkil edilməsi Qaydaları” təsdiq edilmişdir. Həmin Qaydalara əsasən nəqliyyat vasitələrinin satışı Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin nəzdində fəaliyyət göstərən komissiyanın müəyyən etdiyi start satış qiyməti əsasında Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən hərrac vasitəsilə həyata keçirilir. Təşkilatların balansında olan nəqliyyat vasitələrinin normativ-istismar müddətinin bitməsi, tam aşınması, silinməsi, habelə onların qiymətləndirilməsi həmin təşkilatlar tərəfindən təqdim edilmiş sənədlər əsasında qanunvericiliyə uyğun olaraq komissiya tərəfindən müəyyən edilir.

Nazirlər Kabinetinin eyni tarixli digər bir Qərarı ilə “Naxçıvan Muxtar Respublikasında taksi minik avtomobilləri ilə sərnişindaşıma xidmətlərinin tarifləri” təsdiq olunmuşdur.

Nazirlər Kabinetinin 2022-ci il 30 mart tarixli Qərarı ilə “Naxçıvan Muxtar Respublikasında dəmir yolu nəqliyyatı ilə sərnişindaşıma, poçt-baqaj, yük-baqaj və yükdaşıma xidmətlərinin tarifləri və dəmir yolu nəqliyyatından istifadəyə görə yığımların təsdiq edilməsi haqqında” Qərar qəbul edilmişdir.

Eyni zamanda Nazirlər Kabinetinin 2022-ci il 30 mart tarixli Qərarı ilə “Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Qanunsuz Miqrantların Saxlanılması Mərkəzinin daxili-intizam Qaydaları”nın təsdiq edilməsi haqqında” və “Naxçıvan Muxtar Respublikasında dövlət sərhədindən buraxılış məntəqələrinin sayı və yerləşdiyi ərazilərin siyahısı”nın və Naxçıvan Muxtar Respublikasında dövlət sərhədindən buraxılış məntəqələrində işin təşkili və əlaqələndirilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” qərarlarında dəyişiklik edilmişdir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

## Kimya-Biologiya Təmayüllü Liseyin binasının inşası davam etdirilir



Naxçıvan şəhərində Kimya-Biologiya Təmayüllü Liseyin yaradılması ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2020-ci il 8 avqust tarixdə Sərəncam imzalayıb. Hazırda paytaxt şəhərimizdə bu təhsil ocağı üçün yeni bina inşa olunur.

Zirzəmi ilə birlikdə dörd mərtəbədən ibarət olan binanın 342 yerlik tədris korpusunda yüzə yaxın sinif otağı, müasir avadanlıqlarla təchiz olunmuş kimya-biologiya laboratoriyaları, kompüter otaqları, akt zalı, camaşırxana və geniş idman zalı, həmçinin 264 yerlik yataqxana tikilib. Hazırda binada son tamamlama işləri aparılır.

Onu da qeyd edək ki, mart ayının 4-dən liseyə sənəd qəbuluna start verilib. Qəbul 2022-2023-cü tədris ili üzrə ümumtəhsil məktəblərinin səkkizinci və doqquzuncu siniflərində təhsil alacaq şagirdlər arasında müsabiqə yolu ilə aparılacaq. Sənəd qəbulu aprelin iyirmi beşinədək davam etdiriləcək, müsabiqə isə mayın yeddisində keçiriləcək.

**Məcid RƏŞADƏTOĞLU**

## Naxçıvan Muxtar Respublikasının turizm potensialı Təl-Əvivdə təbliğ olunub

*29-30 mart 2022-ci il tarixlərdə İsrail Respublikasının Təl-Əviv şəhərində 30-dan çox ölkənin iştirak etdiyi “Beynəlxalq Aralıq dənizi Turizm Bazarı” (IMTM 2022) sərgisində vahid Azərbaycan stendi altında “Naxçıvan Muxtar Respublikası” stendi təşkil edilərək muxtar respublikanın turizm potensialı təbliğ olunmuşdur.*






Muxtar respublikanın ilk dəfə iştirak etdiyi sərgidə “Naxçıvan Muxtar Respublikası” stendi, xüsusilə də quraşdırılmış monitor vasitəsilə diyarımızın turizm potensialı ilə bağlı videoçarxların nümayişi marağa səbəb olmuşdur. Həmçinin Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti tərəfindən hazırlanmış bukletlər, eləcə də muxtar respublikada fəaliyyət göstərən hotellər haqqında çap məhsulları, “Naxçıvan mətbəxi”, “Naxçıvan 4 fəsildə”, “Naxçıvan şərqin əfsanəsi” kitabları, eyni zamanda yerli istehsal məhsullarımızdan “Badamlı”, “Sirab” mineral suları, Naxçıvan duzu beynəlxalq sərgidə nümayiş etdirilmişdir.

Səfər müddətində İsraildə Azərbaycanın turizm nümayəndəliyinin Təl-Əviv ofisinin açılışı olmuşdur. Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev martın 30-da İsraildə Azərbaycanın rəsmi turizm nümayəndəliyinin Təl-Əviv ofisinin açılış mərasimində bildirmişdir ki, İsraildə Azərbaycanın turizm nümayəndəliyinin açılışı Azərbaycan və İsrail arasında turizm əlaqələrinin inkişafına təkan verəcək. Agentliyin sədri nümayəndəliyin fəaliyyətinin İsraildə Azərbaycan haqqında məlumatlılığın artmasına və ikitərəfli turizm əlaqələrinin möhkəmlənməsinə töhfə verəcəyini qeyd edib. Fuad Nağıyev iqtisadi və strateji amillərlə yanaşı, xalqlarımız arasında mədəni-tarixi əlaqələrin, qarşılıqlı dostluq və anlaşmanın turizm münasibətlərinin inkişafında mühüm rol oynadığını diqqətə çatdırıb.

Tədbirdə çıxış edən İsrailin turizm naziri Yoel Razvozov bildirib ki, 2021-ci ilin avqust ayında Azərbaycanın ticarət, eləcə də turizm nümayəndəliyinin, indi isə Təl-Əviv ofisinin açılışı Azərbaycanla İsrail arasında ikitərəfli münasibətlərin daha da möhkəmlənməsinə, turizm əlaqələrinin genişlənməsinə xidmət edəcək.

Səfər çərçivəsində, həmçinin Dövlət Turizm Agentliyi ilə İsrail Turizm Nazirliyi arasında “Turizm sahəsində əməkdaşlıq haqqında” saziş imzalanıb. Sazişə əsasən tərəflər turizm sahəsində əməkdaşlığı inkişaf etdirmək, hər iki ölkənin turizm idarəetmə orqanları, turizm assosiasiyaları, təşkilatları və müvafiq şirkətləri arasında əlaqələrin qurulmasını, o cümlədən tarixi, rəqəmsal, ekoloji, macəra turizmi üzrə əməkdaşlığı genişləndirmək, mədəni irs və dini məkanlara səyahətləri təşviq etmək öhdəliyi götürürlər.

Azərbaycanın nümayəndə heyətinin tərkibində İsrailə səfər edən Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin direktoru Əkbər Novruzov İsraildə Azərbaycanın turizm nümayəndəliyinin Təl-Əviv ofisinin açılış tədbirində iştirak etmiş, İsrailin turizm naziri Yoel Razvozova “Naxçıvan 4 fəsildə” kitabı hədiyyə olunmuşdur.

***Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti***

## Qardaş Türkiyə universitetləri ilə beynəlxalq əlaqələr inkişaf edir

*Ankara Universitetinin rektoru, professor Necdət Ünüvar, Qazi Universitetinin rektoru, professor doktor Musa Yıldız, İstanbul Texnik Universitetinin rektoru, professor İsmayıl Koyuncu, həmin universitetin prorektoru, professor Lütfiyə Durak Ata, Türk Musiqisi Dövlət Konservatoriyasının müdiri, professor Ali Tüfekçi, Azərbaycanın Türkiyədəki səfirliyinin təhsil müşaviri Nəcibə Nəsibova Naxçıvan Dövlət Universitetinə gəliblər. Səmimiyyətlə qarşılanan qonaqlar ilk olaraq universitetin Konservatoriyasında olublar.*

Onlar İncəsənət fakültəsinin bazasındakı İnstrumental ifaçılığın fortepiano, simli alətlər, nəfəs alətləri, solo oxuma ixtisasları üzrə tələbələrin dərsində iştirak edib, yüksək həvəslə təqdim olunan musiqi nömrələrini izləyiblər. Türkiyəli qonaqlar Litva Respublikasından alınan və ilk dəfə ali təhsil ocağında qurulan elektron filarmoniya avadanlığını xüsusi heyranlıqla qarşılayıblar. Bildirilib ki, optik internet vasitəsilə idarə olunan müasir avadanlıqla, eyni zamanda 2 fərqli ölkədə konsert yayımlamaq mümkündür. Görüşdə gələcəkdə birgə konsertlərin keçirilməsi barədə razılığa gəlinib. Qonaqlar müəllim və tələbələrdən ibarət Kamera orkestri və Xalq çalğı alətləri ansamblının ifalarını dinləyib, tələbələrin dərs prosesini izləyiblər. Fakültənin sərgi salonunda müəllim və tələbələrin əl işlərindən ibarət sərgiyə baxış olub. Sərgidə rəsm əsərləri, dekorativ-tətbiqi sənət və xalq yaradıcılığı nümunələri qonaqların zövqünü oxşayıb.



İkitərəfli görüşdə ali təhsil ocağının rektoru, dosent Elbrus İsayev qonaqları salamlayıb, onları universitetdə görməkdən məmnunluq duyduğunu bildirib. Ötən il İstanbul Texnik Universiteti ilə qarşılıqlı görüşlərdən sonra bugünkü görüşün xüsusi əhəmiyyətə malik olduğu vurğulanıb. Rektor rəhbərlik etdiyi ali təhsil ocağının beynəlxalq əlaqələrində Türkiyə universitetlərinin xüsusi payı olduğunu diqqətə çatdırıb. Qardaş ölkənin təcrübəsini öyrənmək baxımından birgə əməkdaşlığın xüsusi əhəmiyyətə malik olduğu bildirilib. Çıxışda Türkiyə universitetləri ilə texniki sahədə gələcək əməkdaşlıq məsələlərinin vacib məqamlarına toxunulub. Rektor rəhbərlik etdiyi ali təhsil ocağının kadr potensialı, professor-müəllim heyətinin malik olduğu elmi baza, maddi-texniki imkanlar, beynəlxalq əlaqələri, tərəfdaş olduğu xarici ölkə universitetləri haqqında məlumat verib. Universitetdə, ümumilikdə, 8000-ə qədər tələbənin təhsil aldığını diqqətə çatdıran rektor ali təhsil ocağında 9 ölkədən 1500-ə yaxın əcnəbi tələbənin də təhsil aldığını qeyd edib.

İstanbul Texnik Universitetinin rektoru, professor İsmayıl Koyuncu qeyd edib ki, 1773-cü ildə yaradılan və dünyanın mühəndis hazırlayan ilk universiteti kimi tarixə düşən bu ali təhsil ocağı müasir təhsil sistemi, güclü akademik heyəti ilə Türkiyənin nüfuzlu ali təhsil müəssisələri arasında ön sıralarda dayanıb. Universitetin prorektoru, professor Lütfiyə Durak Ata vurğulayıb ki, İstanbul Texnik Universiteti geniş beynəlxalq əlaqələri sayəsində yalnız ölkə daxilində deyil,



beynəlxalq mühitdə də qabaqcıl ola biləcək tələbələr yetişdirən bir dövlət ali məktəbidir. Bildirilib ki, hazırda İstanbul Texnik Universitetində 13 fakültə, fakültələr daxilində 39 bölmə və 6 institut fəaliyyət göstərir.

Görüşdə Texnopark sahəsində əməkdaşlıq, birgə layihələrin icrası istiqamətində işlər müzakirə edilib. Sonra hər iki universitet arasında birgə əməkdaşlığa dair protokol imzalanıb. İmzalanmış protokola görə tərəflərin qarşıya qoyduqları öhdəliklər müzakirə edilib, universitetlərarası əməkdaşlıq sahələri haqqında fikir mübadiləsi aparılıb. Müqavilədə elmi rəqabətliliyin təmin edilməsi, tələbə, müəllim mübadiləsi, mədəniyyət, incəsənət və digər sahələrdə birgə fəaliyyət, tələbə təqaüdü proqramları, elmi əməkdaşlıq əsas fəaliyyət istiqamətləri kimi müəyyənləşdirilib.

Universitetdə fəaliyyətə başlayacaq Texnopark haqqında ətraflı məlumat türkiyəli qonaqlar tərəfindən böyük maraqla qarşılanıb.

Naxçıvan Musiqi Kollecində qonaqlara müəllim və tələbələrin birgə hazırladığı konsert proqramı nümayiş olunub. Kollecin direktoru Məhəbbət Babayeva İstanbul Texnik Universitetinin rektoruna ən qədim milli zərb alətimiz olan qaval hədiyyə edib. Universitetin Konservatoriyasında müəllim və tələbələrin iştirakı ilə Üzeyir Hacıbəylinin “O olmasın, bu olsun” musiqili komediyası nümayiş olunub. Tamaşa alqışlarla qarşılanıb. Axşam isə qonaqlar konservatoriyanın önündə Orkestr alətləri və dirijorluq kafedrasının nəzdində fəaliyyət göstərən Nəfəsli orkestr ansamblının ifasında “Mehtər marşı”nı dinləyib.

Axşam saatlarında təşkil edilən konsert proqramında Ankara Universitetinin rektoru, professor Necdət Ünüvar, prorektor Hicabi Kırlangıç, Qazi Universitetinin rektoru, professor Musa Yıldız, universitetin Tibb fakültəsinin dekanı, professor Mustafa Necmi İlhan, Xarici əlaqələr bölməsinin müdiri, professor İhsan Kalandəroğlu iştirak edib. Qonaqlar öncə fakültənin sərgi salonunda təşkil olunan sərgiyə baxıblar. Xalq çalğı alətləri kafedrasının təşkilatçılığı ilə musiqi nömrələri dinləyiblər. Fakültənin akt zalında təşkil edilən konsert proqramı iştirakçıların ruhunu oxşayıb.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı tədbirlər keçirilib



*AMEA Naxçıvan Bölməsində “Azərbaycanlılara qarşı soyqırımı siyasəti: səbəbləri və nəticələri” mövzusunda konfrans keçirilib.*

31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar keçirilən konfransı giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq ermənilərin Cənubi Qafqaza gəlməsi, məqsədli şəkildə tarixi Azərbaycan torpaqlarına köçürülməsi, irəli sürdükləri əsassız ərazi iddialarından bəhs edib. Akademik 1918-ci il mart soyqırımının ağır nəticələrini konfrans iştirakçılarının diqqətinə çatdırıb. Çıxışda ümummilli lider Heydər Əliyevin bu qanlı hadisələrə ilk dəfə olaraq hüquqi-siyasi qiymət verilməsindən bəhs olunub.

Daha sonra ermənilərin xalqımıza qarşı həyata keçirdikləri soyqırımları nəticəsində həyatını itirmiş, Vətənimizin ərazi bütövlüyü uğrunda qəhrəmancasına həlak olmuş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransda AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi katibi, tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimovun “XX əsrdə azərbaycanlılara qarşı törədilən soyqırımı cinayətləri və onların mahiyyəti”, tarix üzrə fəlsəfə doktoru, dosent İlhami Əliyevin “1918-1920-ci illərdə ermənilərin Naxçıvanda törətdiyi faciələr”, tarix üzrə fəlsəfə doktoru, dosent Toğrul Xəlilovun “1948-1953-cü illərdə azərbaycanlıların Qərbi Azərbaycan torpaqlarından deportasiyası və onun faciəli nəticələri” mövzusunda məruzələri dinlənilib.

* * *

*Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatı tərəfindən keçirilən tədbirdə əvvəlcə Yaycı kəndində soyqırımı qurbanlarının xatirəsinə ucaldılan abidənin önünə gül dəstələri qoyulub, onların əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib. Sonra 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan Yaycı kəndinin qəhrəmanlarının məzarları ziyarət olunub, şəhidlərimizin məzarlarına tər qərənfillər düzülüb, Vətən oğullarının xatirəsi ehtiramla anılıb.*

Kənd mərkəzində davam edən tədbirdə Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qadir İbrahimov bildirib ki, təcavüzkar ermənilər tərəfindən xalqımıza qarşı 200 ilə yaxın bir dövrdə törədilən soyqırımı Naxçıvandan da yan keçməyib. 1918-ci ilin iyununda Naxçıvana hücum zamanı Culfanın Yaycı kəndi də soyqırımına məruz qalıb. Həmin



vaxt 4 minə yaxın əhalisi olan Yaycı kəndi talan edilib, 2000-dən çox kənd sakini qətlə yetirilib. Eyni zamanda rayonun Əbrəqunus, Qazançı, Bənəniyar, Camaldın, Ərəzin, Kırna kəndlərində də dəhşətli qırğınlar törədilib.

Vurğulanıb ki, bu hadisələrin əsl mahiyyətini ümummilli lider Heydər Əliyevin 1993-cü ildə yenidən siyasi hakimiyyətə qayıdışından sonra açmaq mümkün olub. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bilavasitə rəhbərliyi və göstərişi ilə 2007-ci ildə Yaycı soyqırımı qurbanlarının şərəfinə abidə ucaldılıb. Bu tarixi abidə gənclərimizin vətənpərvərlik ruhunda tərbiyəsində mühüm rol oynayır, tariximizin hər səhifəsini diqqətlə öyrənməyi təbliğ edir.

Culfa Rayon İcra Hakimiyyəti başçısının müavini Sara Hüseynova 1918-ci il 31 Mart soyqırımının ağır nəticələrindən və 44 günlük Vətən müharibəsində qazanılan böyük qələbədən ətraflı bəhs edib.

Anım tədbirində Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublikası Təşkilatı Veteranlar şurasının sədri, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin deputatı Fərəc Fərəcov, Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranlar Şurasının sədri Qurban Qurbanov, Saltaq kənd tam orta məktəbinin direktoru Sevinc Mustafayeva, Yeni Azərbaycan Partiyası Culfa rayon təşkilatının gənc üzvü, Dizə kənd tam orta məktəbinin müəllimi Nənəxanım Əliyeva çıxış ediblər.

*Dünən Xatirə muzeyindən “31 Mart – Azərbaycanlıların Soyqırımı Günü” mövzusunda muxtar respublika məktəbliləri üçün interaktiv dərs keçilib.*



Şahbuz rayonunun Mahmudoba kənd tam orta məktəbinin tarix müəllimi Rauf Bağırov tərəfindən keçilən interaktiv dərsdə şagirdlərin diqqətinə çatdırılıb ki, erməni millətçilərinin Azərbaycan xalqına qarşı ərazi iddialarının, təcavüzünün və soyqırımı siyasətinin iki yüz ildən artıq tarixi vardır. Bu mənfur siyasətin məqsədi Azərbaycan torpaqlarının böyük bir qismini ələ keçirmək, azərbaycanlıları tarixi torpaqlarından sıxışdırıb çıxarmaq, sonra həmin ərazilərdə “böyük Ermənistan” dövləti yaratmaq olub.

Qeyd edilib ki, 1918-1920-ci illərdə ermənilər tərəfindən Azərbaycan xalqına qarşı həyata keçirilən soyqırımı siyasəti qədim və əzəli Azərbaycan torpağı olan Naxçıvandan da yan keçməyib, azğınlaşmış ermənilər burada da qanlı faciələr törədiblər.

Bildirilib ki, ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımların mahiyyəti tam açılmış, həmin hadisələrə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilmişdir.

İnteraktiv dərsə muxtar respublikanın 200-dən çox ümumtəhsil məktəbi qoşulub.

***Xəbərlər şöbəsi***

# Baharı yeni mənzildə, yeni avtomobillə qarşıladılar...

## *Şəhid ailələri, qazi və Vətən müharibəsi iştirakçılarına həssas münasibətin, qayğının növbəti nümunəsi*

***Ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu müdrik dövlət siyasətinə sarsılmaz sədaqət ölkəmizin, o cümlədən də muxtar respublikamızın timsalında şəhid ailələri, qazi və müharibə iştirakçılarına göstərilən ehtiramda, qayğıda, həssas münasibətdə özünü ən yüksək səviyyədə göstərir. Cəmiyyətimizin bu həssas kateqoriyadan olan insanlarının sosial, tibbi problemlərinin həll olunması, mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması istiqamətindəki layihələr 2022-ci ildə də uğurla reallaşdırılır. Cari il martın 15-də şəhid ailələri, qazi və Vətən müharibəsi iştirakçılarına ehtiramın, qayğının, diqqətin növbəti nümunəsini gördük. Belə ki, İlaxır çərşənbə günü Naxçıvanda 10 şəhid ailəsinə və qaziyə mənzillər, 10 Vətən müharibəsi iştirakçısına isə avtomobillər təqdim edildi.***



Tədbimat mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ümummilli liderimiz Heydər Əliyevin ***“Azərbaycanın xoşbəxt gələcəyi Azərbaycan vətəndaşlarının Vətənə olan sevgisi, vətənpərvərliyi və millətimizin qüdrəti ilə bağlıdır”*** fikirlərini xatırladaraq dediyi ***“İkinci Qarabağ müharibəsində lider-xalq birliyi və igid oğullarımızın qəhrəmanlığı xalqımıza böyük Zəfər qazandırdı. Bu gün Azərbaycanda şəhid ailələrinin və müharibə iştirakçılarının sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. Xalqımızın birlik və vətənpərvərliyinin ifadəsi olan Novruz bayramı ərəfəsində muxtar respublikada şəhid ailələrinin və müharibə iştirakçılarının mənzil və avtomobillərlə təmin olunması da bu tədbirlərin davamıdır”*** sözləri də müqəddəs amala, siyasi xəttə sadiqliyi, dövlətin sağlam əqidəli vətəndaşına qarşı xüsusi diqqətini, Vətən naminə fədakarlığı, vətənpərvərlik nümunəsini bir daha nümayiş etdirdi. Vətən müharibəsindən ötən qısa dövrdə görülən işlərə nəzər salanda da muxtar respublikada bu sahəyə diqqət və qayğının, cəmiyyətimizin aparıcı qüvvəsinə münasibətin necə həssas olduğu, xüsusi önəm daşıdığı tam mənada öz təsdiqini tapır: İkinci Qarabağ müharibəsi şəhidlərinin ailələri və qazilərin mənzil və avtomobillərlə təminatı ötən dövrdə diqqətdə saxlanılıb, 38 şəhid ailəsi mənzillə, 38 qazi avtomobillə təmin olunub. Həmçinin Vətən müharibəsi qazilərindən 56-sı üçün sağlamlıq imkanlarının məhdudlaşması ilə bağlı təyinat aparılıb, 75 ailə özünüməşğulluq proqramına cəlb edilib. Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, müharibə iştirakçıları və yaralananlar üçün yaradılmış Psixoloji Dəstək Xidmətində 40-dan artıq şəxsə xidmət göstərilib. Müvafiq kateqoriyadan olan 24 şəxsin muxtar respublikadan kənarda müalicə və müayinəsinə kömək edilib, 19 nəfərin kredit borcları ödənilib, 32 ailənin məişət şəraiti yaxşılaşdırılıb, 1 şəhid ailəsi üzvünün təhsil xərcləri qarşılanıb və bu sahədə digər tədbirlər həyata keçirilib. Baharı yeni mənzillərində, yeni avtomobillərlə qarşılayan şəxslərdən bir neçəsi ilə həmsöhbət olub, Vətən müharibəsində keçdikləri döyüş yolu, eləcə də müharibədən sonra sosial məişət şəraitlərinin yaxşılaşdırılması ilə bağlı fikirlərini öyrənməyə çalışdıq.



Yeni mənzillə təmin olunanlardan biri 1993-cü il mayın 9-da Şahbuz rayonunun Külüs kəndində dünyaya göz açan Azərbaycan Ordusunun şəhid baş leytenantı ***Zülfü Rzayevin ailəsi***dir. Həyat yoldaşı Gülnar Rzayeva igid eloğlumuzun 27 illik şərəfli ömür yoluna nəzər salır, onunla bağlı xatirələrini bölüşür: – Yeniyetməlik yaşlarından hərb sənətinə böyük marağı Zülfünün 2007-ci ildə Heydər Əliyev adına Hərbi Liseydən yolunu salmağına vəsilə olur. Daha sonra təhsilini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində davam etdirir və 2015-ci ildə kəşfiyyatçı kimi ön xəttə xidmətə başlayır. 2016-cı ildə düşmənin törətdiyi təxribata qarşı həyata keçirilən əməliyyatlarda fəal iştirak edir, Lələtəpə yüksəkliyinin azad olunmasında şücaət, igidlik göstərir. 2020-ci il sentyabrın 27-də müharibə başlayanda əsgərləri ilə birgə illərdir, Vətənin keşiyində mətinliklə dayanan, bu məqamı səbirsizliklə gözləyən Zülfü də üçrəngli Dövlət Bayrağımızın əzəli torpaqlarımızda əbədi dalğalanması naminə döyüşlərə atılır. Səhər saatlarında başlayan müharibədə ilk 7 kəndin alınmasında böyük cəsurluq nümayiş etdirir, yaralansa belə, geriyə addım atmır, son anadək qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalır... 2018-ci ildə ailə həyatı qurmuşduq, çox ailəcanlı, qədirbilən insan idi yoldaşım. Əsgərlərinin, zabit yoldaşlarının da dilindən heç düşmür Zülfünün adı, müharibədən sonra da nümunəvi xidməti, qayğıkeş münasibəti barədə ağızdolusu xoş sözlər eşidirəm. Yoldaşımın da qismətində hər kəsə nəsib olmayan Vətən yolunda canını fəda etmək kimi şərəfli alın yazısı varmış. Qəhrəman xanımı olmaq böyük fəxrdir; bu adı daim uca, əziz tutmağa çalışacağam.

Ömür-gün yoldaşının oktyabrın 2-də Naxçıvana şəhid kimi ilk gələnlərdən olduğunu dərin kədər və eyni zamanda qürurla xatırlayan Gülnar xanım şəhid ailələrinə göstərilən dövlət qayğısından minnətdarlıq ilə söhbət açır: “Ali Məclis Sədrinin qarşılanma mərasimində iştirakı, ailəmizlə yaxından maraqlanması, yas mərasiminin yüksək səviyyədə təşkili böyük köməklik, arxa-dayaq oldu bizə. Həyat yoldaşımın şəhadətə yetməsindən sonra ölkə başçısı cənab İlham Əliyevin müvafiq sərəncamları ilə “Azərbaycan Bayrağı” ordeni, “Vətən uğrunda”, “Cəsur döyüşçü”, “Füzulinin azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” və “Şuşanın azad olunmasına görə” medalları ilə təltif olunmasından da hədsiz qürur hissi keçirdik. Baharın gəlişi ərəfəsində, martın 15-də Şahbuz şəhərindəki binadan mənzillə təmin edilməyim isə Vətən yolunda canından keçən qəhrəmanıma, onun ailəsinə verilən növbəti böyük dəyər oldu. Həmin gün Ali Məclisin Sədri mənzil və avtomobillə təmin olunan şəhid ailələri və qaziləri qəbul etdi, bir zamanlar təhsildə uğur qazanmış gənc tələbə, həmin gün isə şəhidin həyat yoldaşı kimi muxtar respublika rəhbərinin görüşünə getdim, ürəyimdən keçən minnətdarlıq hisslərini ifadə etdim. Bu görüş nə qədər kədərli olsa da, bir o qədər də fəxrli və qürurlu idi mənimçün. Bütün şəhid ailələri adından dövlətimizə minnətdarlıq edirəm”.

Digər bir həmsöhbətimiz Novruz bayramı ərəfəsində mənzillə təmin olunan qazi ***Cəlal Ağazadə***dir. 1990-cı il iyunun 1-də Culfa şəhərində dünyaya göz açan qəhrəman eloğlumuz 2007-ci ildə Culfa şəhər 2 nömrəli tam orta məktəbi müvəffəqiyyətlə bitirərək hərb sənətinə könül verir. 2008-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantı adını qazanır. 2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin Təlim-Tədris Mərkəzində ixtisasartırma kursu keçdikdən sonra leytenant rütbəsi alaraq motoatıcı bölüyün taqım komandiri kimi Qazax rayonunda yerləşən “N” hərbi hissəyə yollanır. Qısa zamanda bacarıqlı, nizam-intizamlı şəxsi heyət formalaşdıran Cəlal özü də təlimlərdə iştirak edir, qüsursuz xidməti dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranmasının 95, 100 illik yubileyləri münasibətilə təsis edilən, eləcə də “Qüsursuz xidmətə görə” 3-cü dərəcəli medalları ilə təltif olunan igid qəhrəmanımız müharibə başlayanda artıq kapitan rütbəsi ilə bölük komandiri kimi xidmətdəydi. 2020-ci il sentyabrın 27-dən Murovdağ, Goranboyun Gülüstan, Tərtərin Talış kəndi, Suqovuşan istiqamətlərində aparılan döyüş əməliyyatlarına qatılan Cəlal deyir: – İllərdir, həsrətlə gözlədiyimiz an yetişmişdi, nəhayət. Əsgərlərimlə birgə ilk saatlardan müharibəyə atıldıq, qısa zamanda bir sıra yaşayış məntəqələrimizin düşmən tapdağından azad edilməsində payımız oldu. Oktyabrın 6-sı isə mənimçün son döyüş idi. Həmin gün ağır yaralandığım üçün müharibədə mübarizəni dayandırmağa məcbur qalsam da, ordumuzun qələbəsi, şəhid olan yoldaşlarımın qisasının alınmasını eşidəndə ürəyimə rahatlıq gəldi. Müharibə dövründəki kiçik xidmətim dövlətimiz tərəfindən böyük qiymətləndirildi, Ali Baş Komandanın müvafiq sərəncamları ilə “Cəsur döyüşçü”, “Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif olundum. Ailəliyəm, iki azyaşlı övladım var. Onların gələcəkdə vətənpərvər gənclər kimi yetişməsində nümunə olduğum üçün bir valideyn kimi fəxr hissi duyuram. Həm də ona görə qürurluyam ki, dövlətimizin qayğısı üzərimdədir, ötən dövrdə bir neçə dəfə əməliyyat keçirmişəm, bütün xərclərim qarşılanıb. Bu Novruz bayramı ailəmiz üçün olduqca əlamətdar keçdi, martın 15-də Culfa şəhərindəki binadan 3 otaqlı mənzillə təmin olundum. Bütün qazilər, Vətən müharibəsi iştirakçıları adından göstərilən yüksək diqqətə, qayğıya görə dövlətimizə minnətdarlıq edirəm.

Baharın gəlişini yeni avtomobillə qeyd edən qazimiz ***Toğrul Məmmədov*** da Vətən müharibəsində düşmən üzərində qazanılan Böyük Qələbədə payı olduğu üçün özünü xoşbəxt hesab edir. 1998-ci il sentyabrın 17-də Kəngərli rayonunun Qıvraq qəsəbəsində dünyaya göz açan qəhrəmanımız deyir: Orta məktəb illərində müəllimlərimdən, böyüklərdən eşitdiyim, televiziyadan izlədiyim Birinci Qarabağ müharibəsi zamanı düşmənə ciddi müqavimət göstərən, tankın, topun qarşısına əliyalın halda yeriyən oğullarımızın qəhrəmanlıqları hərb sənətini həyat amalı kimi seçməyimizə sövq etdi məni və qardaşımı.




Bütün həmyaşıdlarım kimi mən də bu şərəfli sahə üzrə püxtələşmək, zabit kimi yetişmək üçün ilk olaraq Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyə qəbul olmalı idim. Səylə çalışaraq 2012-ci ildə bu arzuma çatdım. 2015-2019-cu illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alaraq hərbin sirlərinə dərindən yiyələnməyə müvəffəq oldum. 2019-cu ildə leytenant rütbəsi ilə mexanikləşdirilmiş motoatıcı bölüyün taqım komandiri kimi Yevlax rayonundakı “N” hərbi hissəyə xidmətə yollandım. Qısa zamanda keçirilən bir sıra təkmilləşdirici təlimlərdə iştirak edib döyüş bacarıqlarına yiyələndim.

2020-ci il sentyabrın 27-dən etibarən qısa zamanda bir sıra həlledici döyüş əməliyyatlarında iştirak edən igidimizin Suqovuşanı, Talış yüksəkliyini azad edənlər arasında rəhbərlik etdiyi bölük də olub. Sentyabrın 29-da ağır yaralandığı üçün döyüşü dayandırmağa məcbur qalan həmyerlimizin bütün tibbi əməliyyatları dövlətimiz tərəfindən təmin edilib. Döyüşdə göstərdiyi qəhrəmanlıq nümunəsinə görə ölkə Prezidentinin müvafiq sərəncamlarına əsasən “Cəsur döyüşçü”, “Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif olunan Toğrulun da ən böyük arzusu ona hədiyyə edilən avtomobillə muxtar respublikanı ölkəmizlə birləşdirəcək yolla işğaldan azad olunan torpaqlara üz tutmaqdır. Göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlığını bildirən Vətən oğlunun ali niyyətlərinin, mübarək arzularının çin olmasını diləyirik...

*Böyük vətəndaş şairimiz Məmməd Araz deyirdi ki, bu gün gərək hər anımız Vətən desin! İkinci Qarabağ müharibəsində döyüşlərə atılan igidlərimizin də hər anı Vətən deməklə, bizi böyük Zəfərə, tarixi misilsiz Qələbəyə apardı. Həmin oğulların göstərdiyi şücaətlər qədər onlar üçün yaradılan şərait, göstərilən diqqət və qayğı da əsl vətənpərvərlik dərsi, Vətənə sədaqət nümunəsidir. Qısa zamanda bu istiqamətdə görülən işlər də belə deməyə əsas verir ki, hər sahədə olduğu kimi, şəhid ailələri, qazi və Vətən müharibəsi iştirakçıları da muxtar diyarımızda nümunə səviyyəsindədir...*

**Nail ƏSGƏROV**

# Ali təhsil ocağında kitab təqdimatı olub



***“Naxçıvan” Universitetində universitetin Ümumi tarix kafedrasının müəllimi, tarix elmləri doktoru, dosent Xəzər Hüseynovun “Naxçıvan Muxtar Respublikasında aqrar sahənin inkişaf tarixi (1924-2020-ci illər)” adlı kitabının təqdimatı keçirilib.***

Təqdimat mərasimində çıxış edən “Naxçıvan” Universitetinin rektoru, dosent Nurlana Əliyeva yeni dərsliyin universitetin professor-müəllim heyəti və tələbələri, eləcə də digər təhsil müəssisələrində tədris fəaliyyəti ilə məşğul olan müəllimlər üçün faydalı olacağına inandığını söyləyib, kitabın müəllifinə təşəkkürünü bildirib.

Universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru Hüseyn Bağırsoylunun, Ümumi tarix kafedrasının müdiri Mehman Şabanovun, həmin kafedranın müəllimi Rəna Qurbanovanın və İqtisadiyyat kafedrasının müdiri Həsən Məmmədovun yeni nəşrlə bağlı çıxışları dinlənilib. Məlumat verilib ki, sözügedən kitab giriş, 4 fəsil, nəticə və ədəbiyyat siyahısı olmaqla yeni elmi-statistik faktlarla zəngindir. Dərslikdə yer alan mövzular, əsasən, kənd təsərrüfatının ümumi vəziyyətinə həsr olunub. Diqqətə çatdırılıb ki, dərslikdən tarixçilər, iqtisadçılar, ümumtəhsil məktəblərində çalışan müəllimlər, tələbələr, təhsil işçiləri, tədqiqatçılar, habelə magistrlər, doktorantlar faydalana bilərlər.

Yekunda kitabın müəllifi Xəzər Hüseynov göstərilən diqqətə görə minnətdarlıq edib.

***“Naxçıvan” Universitetinin mətbuat xidməti***

# Proqramçılar üçün seminar



*Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin təşkilatçılığı ilə “Defscope” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən nazirliyin və yerli qurumların proqramçıları üçün “Elektron informasiya təhlükəsizliyi” mövzusunda seminar keçirilib.*

“Defscope” Məhdud Məsuliyyətli Cəmiyyətinin təsisçisi və direktoru, Amerika Birləşmiş Ştatlarında fəaliyyət göstərən “Sirius Computer Solutions” şirkətinin aparıcı məsləhətçisi, “INSECO” İnformasiya Təhlükəsizliyi Təşkilatı İctimai Birliyinin həmtəsisçisi Vüsal Salmanlı kibertəhlükəsizliyin bu günün texnologiya dünyasında hər kəs üçün zəruri olduğunu vurğulayıb və bildirib ki, bu səbəbdən proqramlaşdırma, vebsaytların hazırlanması, mobil tətbiqlərin tərtibi, şəbəkələrin və serverlərin qurulması zamanı təhlükəsizlik qaydalarına əməl olunması, informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində və istifadəçilər üçün informasiya sistemlərinə qanunsuz müdaxilə hallarının qarşısının alınması tövsiyə olunur.

Həmçinin informasiya təhlükəsizliyi üzrə sınaqlar və hücumların tipləri, metodologiyası, təhdidlərin növləri, bu sahədə tətbiq olunan kibertəhlükəsizlik həlləri barədə seminar iştirakçılarına ətraflı məlumat verilib.

Seminarın sonunda suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

# Oxucu məktubları

## Minnətdarlıq

## Vətən yolunda sağlamlığımızdan keçdiyimiz kimi canımızı da qurban verməyə hazırıq

*"Şərq qapısı" qəzetinin redaksiyasına!*

Ölkəmizdə Birinci və İkinci Qarabağ müharibəsi qazilərinə və şəhid ailələrinə yüksək dövlət qayğısı göstərilir. Bu siyasətin əsası isə ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli liderimizin müəyyənləşdirdiyi, ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən bu siyasətin mühüm prioritetlərindən biri həmin kateqoriyadan olan insanlar üçün müasir tələblərə cavab verən fərdi və çoxmənzilli yaşayış binalarının tikilməsidir. Bunun ifadəsidir ki, ötən dövr ərzində yüzlərlə Qarabağ müharibəsi qazisi və şəhid ailəsi mənzillə təmin edilib. O da qeyd olunmalıdır ki, ölkəmizdə hərəkət-dayaq sistemi pozulmuş qazilərin reabilitasiyası, müalicəsi istiqamətində atılan addımlarla bərabər, onların minik avtomobilləri ilə təmin olunması yönündə də mühüm işlər görülür.



Muxtar respublikamızda da sağlamlıqlarını Vətən torpaqlarının azadlığı yolunda itirmiş şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, sağlamlıqlarının qorunması, onların minik avtomobilləri və texniki-bərpa vasitələri ilə təmin edilməsi, təhsil almaları, məşğulluq imkanlarının yüksəldilməsi, asudə vaxtlarının səmərəli təşkili üçün məqsədyönlü tədbirlərin keçirilməsinə ciddi önəm verilir.

2008-ci ildən Vətən müdafiəçisi kimi şərəfli bir ad daşıyıram. Respublikamızın müxtəlif bölgələrində xidmət etmişəm. 2017-ci ildə döyüş mövqeyində ağır yaralanaraq sağlamlığımı itirmişəm. Həm xidməti vəzifəmi yerinə yetirən zaman, həm də yaralandığım dövr və sonrakı vaxtlarda dövlətimizin qayğısını üzərimdə hiss etmişəm. Uzun sürən müalicələr, fizioterapiyalar zamanı tibb işçilərimizin şəfalı əlləri sayəsində qismən də olsa, sağlamlığıma qovuşuram. Hazırda Bakı şəhərində müalicədəyəm. Dövlətimiz sağlamlığımızın qeydinə qalmaqla yanaşı, sosial şəraitimizin də yaxşılaşmasına kömək edir. 2019-cu ildə avtomobillə, yaxın günlərdə – bayram ərəfəsində isə Culfa şəhərində ikiotaqlı mənzillə təmin edilmişəm. Bu, iki övladım, yoldaşım və mənim üçün ən əziz bayram hədiyyəsi oldu. Yurdumuzda qazi və şəhid ailələrinə göstərilən qayğı və diqqət yüksək səviyyədədir. Bütün bunlara görə Ali Məclis Sədrinə minnətdaram. Və onu da vurğulamaq istəyirəm ki, lazım gəlsə, sağlamlığımızı qurban verdiyimiz kimi canımızı da Vətən yolunda qurban verməyə hazırıq.

**Elməddin SƏMƏDOV**
***Culfa şəhəri***

## Dövlətimizin daim diqqətindəyik

***Hörmətli redaksiya!***

Mən İkinci Qarabağ müharibəsinin qəhrəmanı Ramin Bağırovun anasıyam. Bu məktubu sizə ünvanlamağı biz şəhid ailələrinə göstərilən diqqət və qayğıya cavab olaraq özümə borc bildim. Qeyd etmək istəyirəm ki, Vətən müharibəsində əldə etdiyimiz şanlı tarixi zəfərimizlə xalqımız böyük iftixar hissi keçirir. Bu gün əminliklə söyləyə bilərəm ki, 44 günlük müharibədə şəhidlik zirvəsinə yüksələnlərin ailələrinin və qazilərin sosial müdafiəsi yüksək səviyyədə təşkil edilir, onların sosial təminat və ehtiyaclarına xüsusi diqqət yetirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə bu istiqamətdə görülən çoxsaylı tədbirlər ailələrə böyük sevinc bəxş edib. Onu da qeyd etməyi lazım bilirəm ki, bu kateqoriyaya aid olanların sosial müdafiəsinin gücləndirilməsi davamlı xarakter daşıyır.

Bir şəhid anası kimi demək istəyirəm ki, şəhid ailələrinə göstərilən hərtərəfli dövlət qayğısı, acımız nə qədər dərin olsa da, üzəyimizə su səpir. Ailəmizə, övladlarıma göstərilən bu qayğının ən bariz nümunəsi isə bu yaxınlarda Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin həyata keçirdiyi özünüməşğulluq tədbirləri çərçivəsində bir baş yanıbalalı, iribuynuzlu heyvanın verilməsi oldu. Bu təsərrüfatımızı genişləndirməyə, maddi təminatımızı daha da yaxşılaşdırmağa kömək edəcək.Bütün şəhid ailələri adından bizi diqqətdə saxlayıb, hərtərəfli qayğı göstərən dövlətimizə minnətdarlığımı bildirirəm.

**Sayimə BAĞIROVA**
***Şahbuz rayonu, Badamlı qəsəbəsi***

## Vətən uğrunda hər bir fədakarlığa dəyər

*Qədim yurdumun qəhrəman insanlarına salam olsun!*



Həqiqi hərbi xidmətimi bitirdikdən sonra orduda qalmaq üçün müraciət etdim və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi ordu sıralarında qaldım. Xidmətə başladığım, hərbi formanı geydiyim gündən bir arzum var idi: işğalda olan torpaqlarımızı azad edək. Yurdumuzun işğal altında qalmış torpaqlarını Vətənimizə qaytaraq. Şükürlər olsun ki, bu arzuya çatanlardan biri kimi fəxr hissi ilə bu sətirləri yazıram. Harada dünyaya gəlməyimizin, harada böyüyüb boya-başa çatmağımızın fərqi yoxdur. Naxçıvan da bizimdir, Şuşa da, Laçın da, Xocalı da. Vətənin bu başı, o başı yoxdur.

Vətən müharibəsi başlayandan bir neçə gün sonra Naxçıvandan Qarabağa yola düşəndə sevincli idik, hamımız gülə-gülə gedirdik döyüşə. Çünki bir ovuc torpaq qızıldan belə, dəyərlidir bizim üçün. Şuşa uğrunda gedən döyüşlərdə iştirak etdiyim günlərin birində ağır yaralandım. Bir qolum amputasiya edildi. Şuşanın azad olunduğu xəbərini hərbi hospitalda eşitdim. Qələbə ilə yurdumuza qayıtdıq. Kimi qazi kimi, kimi də şəhid olaraq. Həmin gündən bir an belə, tək olduğumu hiss etmirəm. Dövlət qurumları qayğımıza qalır. Şərur şəhərinin mərkəzində yerləşən hər cür şəraiti olan, rahat mənzilin və yaxın günlərdə avtomobilin bizə hədiyyə edilməsi hədsiz sevincimizə səbəb olmaqla, sabaha inamımızı daha da artırıb. Atılan hər bir addım dövlətimizin bu istiqamətdə həyata keçirdiyi tədbirlərin ardıcıl olduğunu, müharibə iştirakçılarına yüksək diqqət və qayğı göstərildiyini sübut edir. Görülən işlər bu kateqoriyadan olan insanların sosial müdafiəsinin gücləndirilməsinə, onların həyat şəraitinin əsaslı şəkildə yaxşılaşdırılmasına xidmət edir. Mənə və mənim kimi sağlamlığını Vətən yolunda itirən insanlara göstərilən qayğıya görə dövlətimizə minnətdaram.

**Oruc SALMANOV**
***Şərur rayonu, Maxta kəndi***

## Əməyimizin qiymətləndirilməsi təhsilin inkişafına stimuldur

***Hörmətli redaksiya!***

Ümummilli liderimiz Heydər Əliyevin ideyalarının yaşadıldığı muxtar respublikamızda milli təhsil konsepsiyasının ardıcıl həyata keçirilməsi bu sahədə bizə böyük uğurlar qazandırıb. Bütövlükdə, ölkəmizdə həyata keçirilən müasir təhsil islahatları bu sahənin inkişafını qaçılmaz edib. Muxtar respublikanın sosial-iqtisadi tərəqqisi ilə qırılmaz surətdə bağlı olan təhsilin inkişafı əhalinin rifahının yaxşılaşması, həmçinin hər bir insanın öz həyatını daha yüksək səviyyədə qurmasında əhəmiyyətli rol oynayır. Diyarımızda təhsil müəssisələrinin infrastrukturunun müasirləşdirilməsi, inkişaf və innovasiya xarakterli layihələrin, müsabiqələrin həyata keçirilməsi artıq ənənə halını alıb. Xüsusilə fəaliyyət göstərdiyim Naxçıvan Dövlət Universitetində son zamanlarda yaradılan yenilikçi mühit peşəkar kadr potensialının yetişdirilməsinə də öz təsirini göstərib. Məhz göstərilən qayğı hesabına ötən il dünya universitetləri portalında reytinq sıralamasında dünyanın ən yaxşı universitetləri arasında Naxçıvan Dövlət Universiteti də yer alıb, "2021-ci ilin ən yaxşı rektoru" sosial təlabə sorğusunun qalibi Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev olub.

Onu da qeyd etməliyəm ki, universitetimizdə çalışan alimlərin elmi fəaliyyətinə xüsusi diqqət göstərilir. Bu yaxınlarda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə "Əməkdar müəllim" fəxri adına layiq görülməyim bunun bariz təzahürüdür. Bu mənim Naxçıvan Dövlət Universitetindəki 32 illik əməyimə verilən ən yüksək qiymətdir. Muxtar respublikada müəllimlərin əməyinə verdiyi dəyərə, təhsilin inkişafına göstərdiyi qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığımı bildirirəm.

Dövlətimiz tərəfindən əməyimizin yüksək qiymətləndirilməsi təhsilin inkişafına stimuldur, bizi daha məhsuldar elmi-pedaqoji fəaliyyətə ruhlandırır. Bundan sonra da Azərbaycan təhsilinin inkişafı üçün bütün fəaliyyətimizi səfərbər edəcək, peşəkar kadr hazırlığında əzmlə çalışacağıq.

**Zərövşən BABAYEVA**
***Naxçıvan Dövlət Universitetinin professoru, pedaqogika elmləri doktoru***

## Belə bir təhsil ocağında oxumaqdan qürur duyuram

***Salam, hörmətli redaksiya!***



Bu məktubu yazmaqda məqsədim qəzetiniz vasitəsilə təəssüratlarımı hamı ilə bölüşməkdir. Mən Türkiyə Respublikasının Şanlıurfa şəhərindənəm. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində Stomatologiya ixtisası üzrə təhsil alıram. Buradakı təhsil şəraiti çox gözəldir. Elmi bilikləri öyrənməklə yanaşı, xəstəxanalarda təcrübə keçirik. Bu il Naxçıvan şəhərində istifadəyə verilən "İmplant Dent" klinikasında həm universitetdə, həm də klinikada fəaliyyət göstərən müəllimlərimizdən, peşəkar stomatoloqlardan bu sahədəki elmi-təcrübi yenilikləri daha dərindən öyrənə bilirik. Bütün bunlar bir daha təsdiq edir ki, Naxçıvan Dövlət Universiteti elmin, tədrisin və mədəniyyətin inteqrasiyasını özündə birləşdirən mötəbər ali məktəbdir.

Naxçıvanda gənclərin, o cümlədən xarici tələbələrin təhsil alması ilə yanaşı, onların yaşaması və işləməsi üçün də hərtərəfli şərait yaradılıb. Mən də işlə təmin olunmuşam. Dərsdən sonra işləyirəm. Bu da imkan verir ki, öz maddi tələbatımı ödəyim. Bununla yanaşı, onu da qeyd etmək istərdim ki, muxtar respublikanın ali təhsil müəssisələri hər zaman dövlət qayğısı ilə əhatə olunub, dərslərin tədrisi, imtahanların keçirilməsi üçün əlverişli şərait yaradılıb. Eləcə də pandemiya dövründə bizlərə ərzaq paylarının ayrılması, Ramazan bayramı ilə əlaqədar iftar paylarının verilməsi, maddi yardım almaq üçün elektron kartlar təqdim edilməsi göstərilən diqqətin daha bir ifadəsidir. Bu qayğıya görə muxtar respublika rəhbərinə dərin minnətdarlığımı bildirirəm.

**Məhmət MEMİTANLI**
***Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin III kurs tələbəsi***

## Naxçıvan gömrükçülərinin sayıqlığı nəticəsində narkotik qaçaqmalçılığı cəhdinin qarşısı alınıb

Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri çərçivəsində Naxçıvan gömrükçüləri tərəfindən daha bir uğurlu əməliyyat həyata keçirilib. Narkotik qaçaqmalçılığı faktı Şahtaxtı dövlət sərhədindəki buraxılış məntəqəsində qeydə alınıb. Belə ki, Naxçıvan Muxtar Respublikası ərazisindən tranzit keçməklə Türkiyə Respublikasına, oradan da təyinat ölkəsi Almaniya Federativ Respublikasına gedən İran İslam Respublikası vətəndaşının idarə etdiyi 37E82710 dövlət nömrə nişanlı "Mercedes Benz" markalı nəqliyyat vasitəsinə risk meyarı əsasında xidməti itin tətbiqi ilə gömrük baxışı həyata keçirilib. Xidməti itin reaksiyası nəticəsində yük nəqliyyat vasitəsinin qoşqusunun sandıqçasında olan ehtiyat hissənin içərisindən ümumi çəkisi 5 kiloqram 180 qram olan narkotik vasitə – "tiryək" aşkarlanıb.



Faktla bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin İstintaq bölməsi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.2-ci maddəsi ilə (qaçaqmalçılıq yolu ilə narkotik vasitələrin gömrük nəzarətindən kənar və ya ondan gizli keçirilməsi) cinayət işi açılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

## Püşkatma keçirilib

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası və Naxçıvan Futbol Federasiyasının təşkilatçılığı ilə muxtar respublikada uşaq futbolu üzrə çempionatlar keçiriləcək.

Ötən gün Uzunoba Təlim-Məşq İdman Kompleksinin inzibati binasında çempionatın püşkatma mərasimi təşkil olunub. Belə ki, 8 komandanın mübarizə aparacağı AFFA U-14 liqasının püşkünə əsasən "Culfa" – "Şahbuz", "Araz-Naxçıvan" – "Kəngərli", "Sədərək" – "Şərur UGİM" və "Şərur" – "Ordubad" cütlükləri münasibətlərə aydınlıq gətirəcək.

Eyni zamanda ölkənin ən kütləvi məktəbli futbol turniri olan AFFA "Coca-Cola məktəbli kuboku"nun ilk mərhələsində qarşılaşacaq cütlüklər məlum olub. Belə ki, bu mərhələdə "Şərur" "Kəngərli"ni, "Sədərək" "Şahbuz"u, "Naxçıvan" "Ordubad"ı, "Babək" isə "Culfa" komandasını sınağa çəkəcək.

Qeyd edək ki, turnirlər olimpiya sisteminə əsasən keçiriləcək.

**✍ Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Əliyev Malik İsmayıl oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Nail Əsgərov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 272